**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ EMAL SƏNAYESİNDƏ İNNOVASİYA SAHİBKARLIĞININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 - "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 – İqtisad

**İddiaçı: Aytən Faris qızı Əbdürrəhmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İnnovasiya iqtisadiyyatı və rəqəmsal transformasiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə fəlsəfə doktoru, dosent **Allahyar Niyaz oğlu Muradov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor **Məhəbbət Aşır oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Nəsimi Bəşir oğlu Kamalov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent **Ramil Hacırza oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor **Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru **Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, dosent **Aqil Məhiyəddin oğlu Əsədov**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son 20 ildə Azərbaycanda uğurla həyata keçirilən sistemli sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlılığının, onun maliyyə təminatının güclənməsinə və sürətlə müasirləşməsinə, qlobal dəyər zəncirinə inteqrasiyanın sürətlənməsinə və nəhayət bunların nəticəsi olaraq innovasiya yönümlü inkişafa hədəflənmişdir. Qeyd olunanlara nail olmaq məqsədi ilə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır. Qeyd edək ki, 2023-cü ilin "Qlobal İnnovasiya İndeksi" üzrə Azərbaycanın reytinqi 2022-ci illə müqayisədə dörd pillə yaxşılaşaraq 89-cu yerdə, "innovasiya resursları" alt indeksi üzrə üç pillə yaxşılaşaraq 76-cı yerdə qərarlaşıb. Bu irəliləyişə ölkədə aparılan infrastruktur islahatları, makroiqtisadi sabitlik, əmək bazarının təşkili, sosial sferalarda İKT-dən istifadə, enerji təhlükəsizliyi sahələrində görülən işlərin nəticəsində əldə olunmuşdur. Əlbəttə ki, Azərbaycan daha yaxşı mövqedə olmaq üçün potensiala malikdir. Hazırda Azərbaycanın emal sənayesində innovasiya məhsulunun ümumi sənaye məhsulundakı payı 0,22 faiz, ÜDM-də payı isə 0,07 faiz təşkil edir ki, bu da beynəlxalq təcrübədə tövsiyə edilən astana həddindən kəskin dərəcədə aşağıdır. Digər tərəfdən, emal sənayesində faktiki fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 85,8% – mikro və kiçik müəssisə statusundadır və innovasiya məhsullarının istehsalı prosesində iştirak etmirlər. Emal müəssisələrində əməyin ödənişi ilə istehsalın son nəticəsi arasında üzvi əlaqənin yaradılmaması səbəbindən işçi axıcılığının orta səviyyəsi 20,7 faiz təşkil edir.

Bu vaxtadək innovasiya fəaliyyətinin tənzimlənməsinə dair qanun və inkişafı üzrə məqsədli dövlət proqramı qəbul edilməyib. Mövcud tədqiqatlarda innovasiya sahibkarlığının inkişaf istiqamətləri sistemli yanaşmanı özündə ehtiva etmir. Azərbaycanda təkmil Milli innovasiya sistemi yaradılmamışdır. Bütün bu faktlar emal sənayesində innovasiya sahibkarlığının inkişafına öz mənfi təsirini göstərir.

Azərbaycanda sahibkarlığın inkişafı, onun dövlət tənzimlənməsi, milli iqtisadi inkişaf modelinin formalaşdırılması, mütərəqqi menecment formalarının və innovasiya infrastrukturunun yaradılması, layihələrin idarə edilməsi, innovasiya fəaliyyətinin informasiya təminatı, qeyri-neft sektorunun inkişafı, intellektual kapitaldan səmərəli istifadə və digər aspektlər ayrı-ayrılıqda innovasiya sahibkarlığının elementləri kontekstində aparılan araşdırmalarda Azərbaycanlı iqtisadçı-alimlərdən: Z.Ə. Səmədzadə, Ə.X. Nuriyev, Ş.M. Muradov, N. Müzəffərli (İmanov), T.H. Hüseynov, Ş.S. Qafarov, T.N. Əliyev, Ş.T.Əliyev, Ə.B.Əliyev, E.M.Hacızadə, M.A. Məmmədov, Z.M.Nəcəfov, Q.S.Süleymanov, Q.Ə.Səfərov, İ.A.Aslanzadə, R.K.İsgəndərov, A.D.Hüseynova, R.P.Sultanova, G.Z.Yüzbaşiyeva, A.N.Muradov, N.B.Kamalov E.E.Məmmədzadə və başqaların əməyini yüksək qiymətləndirmək lazımdır.

Sadalanan problemlərin bütünlükdə iqtisadi fəaliyyət sferalarında tədqiqi xarici ölkə alimlərindən: V.A.Barinova, K.A.Barmuta, R.O.Buqubayeva və E.B.Beqejanov, M.A.Bunçuk, Y.V.Bulanova, L.M.Votçel, P.F.Druker, A.Y.Qoroxova və A.N.Zotov, S.A.İvanov, P.A.Kanapuxin, Q.V.Kadakoyeva, D.M.Krupski, N.Y.Lapin, A.F.Naumov və A.A.Zaxarova, Y.S.Pinkovetskaya, M.A.Sazonova, S.V.Terebova və başqaları tərəfindən də tədqiq edilmişdir. Lakin Azərbaycanın və xarici ölkə alimlərinin tədqiqatlarının nəzəri və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, həmin alimlərin elmi araşdırmalarında innovasiya sahibkarlığının mahiyyətinə, əhatə dairəsinə, idarə edilməsinə, infrastruktur təminatına, inkişaf strategiyasının formalaşmasına, məhsul və proses innovasiyasının nisbətinə dair yetkil fikri formalaşmayıb.

Qeyd olunan problemlərin həlli Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının təşkilati-iqtisadi və texniki-texnoloji aspektlərdən modernləşdirilməsini tələb edir və bütün bunlar da seçilmiş mövzunun bir daha aktual olduğunu göstərir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi innovasiyayönümlü iqtisadiyyata sürətli keçidi təmin etmək üçün emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkili və idarə

edilməsinə imkan verə biləcək nəzəri-metodoloji və praktiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Həmin məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Tədqiq edilən problemə dair mövcud ədəbiyyatların öyrənilib ümumiləşdirilməsi əsasında innovasiya sahibkarlığının mahiyyəti, məzmunu, növləri və infrastrukturunun tədqiq edilməsi;
- Emal sənayesində innovasiya sahibkarlığının təşkili və idarə edilməsi mexanizminin metodoloji aspektlərinin tədqiq olunması;
- Emal sənayesində innovasiya sahibkarlığının inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübənin ümumiləşdirilməsi və onlardan Azərbaycan reallığında istifadə imkanlarının müəyyən edilməsi;
- Çoxillik statistik məlumatlardan, eləcə də sosioloji tədqiqatların nəticələrindən istifadə edərək, Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının mövcud vəziyyətini formalaşdıran sistemin kəmiyyət və keyfiyyət indikatorları əsasında təhlil edilib qiymətləndirilməsi, onun inkişafına mane olan iqtisadi, istehsal və digər amillərin müəyyən edilməsi və müvafiq ehtiyat imkanlarının aşkara çıxarılması;
- Sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsinin mövcud mexanizminin təkmilləşdirilməsi;
- İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması və onun inkişaf strategiyasının formalaşdırılması üzrə tövsiyələrin işlənib hazırlanması;

**Tədqiqatın obyekti.** Azərbaycan Respublikasının emal sənayesində sahibkarlıq subyektləridir.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikasının emal sənayesində innovasiya sahibkarlığının təşkili və idarə edilməsi prosesinin təkmilləşdirilməsinin təşkilati-iqtisadi mexanizmləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** – Azərbaycan Respublikasının Qanunları, ölkə Prezidentinin Fərman və Sərəncamları, Nazirlər Kabinetinin qərarları, Azərbaycan 2030 – Milli Prioritetlər və onlara söykənən 2026-cı ilədək sosial-iqtisadi

inkişaf strategiyası, eləcə də son illərdə keçirilən respublika və beynəlxalq elmi-praktiki konfransların materialları təşkil edir.

**Tədqiqat metodları.** Dissertasiya işini yerinə yetirərkən iqtisadi statistik qruplaşdırma, müqayisəli iqtisadi təhlil, sistem yanaşma, riyazi-statistik modelləşmə, sosioloji tədqiqatlar metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Sistemli yanaşmaya üstünlük verilməklə innovasiya sahibkarlığının mahiyyəti, onun pillələri, mərhələləri və metodları formalaşdırılmışdır;
2. İnnovasiya sahibkarlığının məhsul, texnoloji və sosial növləri sırasına digər təşkilati-iqtisadi növlərin daxil edilməsi onun kompleks qiymətləndirilməsini şərtləndirəcəkdir.
3. Sahibkarlıq subyektlərində innovasiya prosesinin təşkilinin ümumi modelindən, fəaliyyətinin aktivləşdirilməsi üçün zəruri olan yeni mexanizmlərdən istifadə onların ixrac və investisiya imkanlarının yaxşılaşdırılmasına imkan vermiş olacaqdır.
4. Emal sənayesində innovasiya fəaliyyətini, eləcə də innovasiya sahibkarlığının səviyyəsini qiymətləndirmək üçün qrup, kəmiyyət və keyfiyyət indikatorlar sisteminin təkmilləşdirilməsi davamlı inkişafa, ləğv edilən müəssisələrin sayının azalmasına, məqsədli layihələrin və proqramların həyata keçirilməsinə təminat yaradacaqdır.
5. Dövlətin innovasiya sahibkarlığının inkişaf strategiyası ilə innovasiya bazarı arasında qarşılıqlı əlaqənin fərqli konseptual sxemin formalaşdırılması, MİS-in yaradılması və inkişafı, yeni infrastrukturun formalaşmasına təkan vermiş olacaqdır.
6. Emal sənayesinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla innovasiya sahibkarlığının təşkili prosesində yarana bilən risklərin neytrallaşdırılması üçün mexanizm işlənilib hazırlanmışdır. Ondan təcrübədə istifadə innovasiya fəaliyyətinin şaxələnməsinə, itkilərin və izafi xərclərin azalmasına, subyektlərin maliyyə dayanıqlığının təmin edilməsinə imkan verəcəkdir;
7. Emal sənayesinin alt sahələri üzrə innovasiya yönümlü klasterlərin, orta və iri müəssisələrdə texnologiyaların transferi

mərkəzinin yaradılması nəticə etibarilə innovativ infrastrukturun inkişafına, iştirakçı firmalarda qalıq məhsulun həcminin minimuma endirilməsinə, kadr potensialından səmərəli istifadəyə, investisiya-innovasiya layihələrinin, innovativ inkişaf strategiyasının işlənilməsinə, bütünlükdə yüksək sinerji effektinin əldə edilməsinə nail olunacaqdır.

**Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Sistemli yanaşma əsasında sahibkarlığın təkmil tərifi formalaşmışdır; (5, s.93-94)
- İnnovasiya sahibkarlığına mürəkkəb proses kimi baxılaraq onun mahiyyətini, növlərini, pillələrini, mərhələlərini və təşkilini özündə ehtiva edən ümumi model işlənilmişdir; (5,s.94-95; 3, s.351)
- Sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin genişləndirilməsi üçün zəruri olan yeni mexanizmlərin və inkişaf modelinin prinsipial strukturu verilmişdir; (12, s.85)
- Yeni sistem indikatorlardan istifadə edilərək emal sənayesində sahibkarlıq subyektlərinin innovasiya potensialı qiymətləndirmişdir; (9, s.24-25;15,s.7)
- Sənaye sektorunda innovasiya məhsulunun həcminə təsir edən əsas iqtisadi və texniki-texnoloji göstəricilər arasındakı asılılığın riyazi-statistik modeli qurulmuşdur; (4,s.88-89)
- İnnovasiya sahibkarlığı fəaliyyətinin formalaşması və inkişafının prinsipal modeli təklif olunmuşdur; (5,s.96)
- Emal sənayesində innovasiya sahibkarlığında risklərin idarə edilməsi mexanizmi işlənilmiş, metodları təsnifləşdirilmiş, alt sahələr üzrə innovasiya yönümlü klasterlərin yaradılmasının məqsədəuyğunluğu əsaslandırılmış və təsnifatı verilmişdir. (11,s.99-100)

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas nəzəri-konseptual müddəaları və elmi nəticələri, formalaşdırılan təklif və tövsiyələr Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkili və idarə edilməsinin mövcud strukturunun təkmilləşdirilməsində, sahənin innovativ-inkişaf proqramının işlənilməsində, innovasiya sahibkarlığına mövcud təşviq mexanizminin təkmilləşdirilməsində, innovasiya infrastrukturu şəbəkəsinin genişləndirilməsində, sahibkarlıq

subyektlərinin fəaliyyətinin qiymətləndirilməsində, onların innovasiya aktivliyinə təsir edən təşkilati, texniki-texnoloji və sosial amillərin sistemləşdirilməsində, innovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasında, subyektlərin inkişaf strategiyasının müəyyən edilməsində, innovasiya məhsullarının həcminin proqnozlaşdırılmasında, eləcə də, ali məktəblərdə müvafiq fənlərin tədrisi prosesində istifadə edilə bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiya işinin əsas nəzəri-metodoloji və əməli əhəmiyyətli müddəaları, işlənib hazırlanan təklif və tövsiyələri yeddi respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslarda məruzə edilmiş, tezis və konfrans materialları kimi çap olunmuş, müvafiq sertifikatlara və birinci dərəcəli diplomlara layiq görülmüşdür.

Dissertasiya işinin mövzusuna dair 5-i xaricdə olmaqla (onlardan 3-ü yüksək səviyyəli beynəlxalq bazada indeksləşən jurnalda və konfrans materialında) AAK-ın tövsiyə etdiyi elmi jurnal və konfrans materiallarında 9,4 çap vərəqi həcmində 17 məqalə və tezis nəşr edilmişdir.

**Dissertasiya işinin quruluşu və işarə ilə ümumi həcmi.**

Dissertasiya işi giriş, 3 fəsil, nəticə, 118 adda istifadə edilmiş ədəbiyyat siyahısı, ixtisarlar və əlavələrdən ibarətdir. İşdə aparılan təhlil və qiymətləndirmə məqsədi ilə 26 cədvəl, 18 şəkil, 13 diaqram və qrafikdən istifadə edilmişdir.

Dissertasiya işinin ümumi həcmi 392 306 işarə, o cümlədən, titul səhifəsi və mündəricat 2936 işarə, giriş 20 199 işarə, Fəsil I 89 697 işarə, Fəsil II 70 806 işarə, Fəsil III 69 820 işarə, nəticə 15 299 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 17 274 işarədən, əlavələr və ixtisarların siyahısı 6275 işarədən ibarətdir. Cədvəllər, şəkillər, diaqramlar və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, dissertasiya işinin həcmi 249106 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I FƏSİL. Emal sənayesində innovasiya sahibkarlığının təşkilinin nəzəri-metodoloji əsasları**

**1.1.**İnnovasiya sahibkarlığının mahiyyəti, məzmunu, növləri və infrastrukturu

**1.2.**Sənaye istehsalının davamlı artımında innovasiya sahibkarlığının təşkili mexanizminin formalaşmasının metodoloji aspektləri

**1.3.**Emal sənayesində innovasiya sahibkarlığının inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübə

**II FƏSİL. Azərbaycan Respublikasının emal sənayesində innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**

**2.1.**Sahibkarlıq subyektlərinin strukturunda baş verən dəyişikliklərin sahənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi

**2.2.** İnnovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin kəmiyyət və keyfiyyət sistem indikatorlar əsasında qiymətləndirilməsi

**2.3.**Sahibkarlıq subyektlərinin innovasiya aktivliyinə təsir edən amillərin ekonometrik və sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilməsi

**III FƏSİL. Azərbaycan Respublikasının emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkilinin iqtisadi metod və mexanizmlərinin təkmilləşdirilməsi**

**3.1.**İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması

**3.2.**Sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi

**3.3.**İnnovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşdırılması

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

**İXTİSARLARIN SİYAHISI**

**ƏLAVƏLƏR**

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılmış, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatn adı, quruluşu və həcmi barədə məlumatlar təqdim olunmuşdur.

Dissertasiyanın **"Emal sənayesində innovasiya sahibkarlığının təşkilinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində innovasiya sahibkarlığının mahiyyəti, məzmunu, növləri və infrastrukturunun əhatə dairəsi, sənaye istehsalının davamlı artımında innovasiya sahibkarlığının təşkili mexanizminin formalaşmasının metodoloji aspektləri, eləcə də həmin sahədə innovasiya sahibkarlığının inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübə öz əksini tapmışdır**.**

Tədqiqatın əhatə dairəsinin çoxaspektliliyinin nəzərə alınaraq işdə əvvəlcə sahibkarlıq və innovasiya sahibkarlığı məfhumlarında təkamül yolu ilə baş verən dəyişiklikləri nəzərdən keçirmiş, klassiklərin, çoxsaylı iqtisadçı alimlərin baxışları və yanaşmalarını sistemləşdirmişdir.

Müəyyən edilmişdir ki, onlar əsas diqqəti sahibkarlıq prosesinin təşkil olunması xüsusiyyətlərinə, həmin proseslərin reallaşdırılmasında iştirak edən elementlərdən istifadəyə, eləcə də fəaliyyətin nəticələrinə yönəldilmişdir və qeyd edilir ki, innovasiya sahibkarlığı kommersiya məqsədilə texniki-texnoloji, təşkilati-iqtisadi və sosial yeniliklərin yaradılması və istifadəsi prosesidir. Bu fikirlərlə razılaşmaq çətindir, ən azı ona görə ki, innovasiya sahibkarlığının qloballaşma prosesində əhatə dairəsi ildən-ilə genişlənir, sahibkarın şəxsi keyfiyyətini xarakterizə edən əlamətlər zənginləşir. Odur ki, innovasiya sahibkarlığının mahiyyətini açıqlayarkən sistemli yanaşmaya üstünlük verilməlidir. Bizim fikrimizcə, həmin kontekstdə *innovasiya sahibkarlığı – davamlı inkişafın əsas məqsədlərini və kreativliyini özündə ehtiva edən, intellektual kapitalın, iqtisadi, texniki-texnoloji, siyasi, hüquqi, təşkilati, sosial-psixoloji xarakterli çoxsaylı amillərin təsiri altında*

*formalaşan və inkişaf edən, rəqabətə davamlı (yeni, təkmilləşən) məhsul istehsalına, yüksək keyfiyyətli xidmətə hədəflənən yaradıcılıq prosesidir (idarəetmə fəaliyyətidir).* Azərbaycanın emal sənayesi sahələrini mövcud texniki-texnoloji durumu və aşağı innovasiya aktivliyi orada innovasiya sahibkarlığının inkişafının zəruriliyini özündə ehtiva edən çoxsaylı amillərin nəzərə alınması və onun mürəkkəb proses kimi fazalara ayrılmasını şərtləşdirir.

Ümumiyyətlə innovasiya sahibkarlığının təcrübədə üç modelini fərqləndirirlər:

**1.** Daxili təşkilatlanmaya əsaslanan innovasiya sahibkarlığı;

**2.** Sazişlər (müqavilələr) bağlamaq yolu ilə xarici təşkilatlanmaya əsaslanan innovasiya sahibkarlığı;

**3.** Vençurların köməyi ilə xarici təşkilatlanmaya üstünlük verilən innovasiya sahibkarlığı.

Lakin innovasiya sahibkarlığının səmərəli idarə edilməsi üçün qeyd edilən modellərlə yanaşı, onun pillələri və mərhələlərini də fərqləndirmək lazımdır. Bu məqsədlə işdə innovasiya sahibkarlığının pillələri, mərhələləri və modelləri təsnifləşdirilərək , onların prinsipial quruluşu müvafiq sxemdə əks etdirilmişdir.

İqtisadi ədəbiyyatlarda innovasiya sahibkarlığının yalnız məhsul, texnoloji və sosial növü fərqləndirilir. Lakin, həmin növlər innovasiya sahibkarlığının məzmunu və əhatə dairəsini özündə tam əks etdirmir. Odur ki*, onların sırasına iqtisadi, ekoloji, marketinq və idarəetmə fəaliyyəti üzrə növləri də daxil etmək vacibdir ki,* innovasiya sahibkarlığının nəticələrinin kompleks qiymətləndirilməsi mümkün olsun. Onları nəzərə alaraq, emal sənayesi üçün xas olan innovasiya sahibkarlığının növlərinin təsnifatı və onların hər birinin əhatə dairəsi 1 saylı şəkildə əks etdirilmişdir.

İnnovasiya sahibkarlığının səmərəli təşkili və idarə edilməsinin vacib şərtlərindən biri - müvafiq innovasiya infrastrukturunun yaradılmasıdır. Belə infrastruktur elmi tədqiqatın və işləmələrin nəticələri, dövlət, bazar və biznes arasında özünəməxsus körpü rolunu oynayır. Bizim *fikrimizcə, ölkəmizin iqtisadi fəaliyyət sahələrində innovasiya infrastrukturunun inkişafı bütünlükdə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və inkişafı baxımından vacibdir və* nəticə etibarı ilə innovasiya məhsulunun

yaradılması, onların həcmi və çeşidinin artırılması tam həcmdə satışı, keyfiyyətli xidmətlərin göstərilməsi üzrə innovasiya fəaliyyətinin genişləndirilməsinə təminat yaratmış olacaqdır.




**Şəkil 1.** İnnovasiya sahibkarlığının növləri və onların məzmununun qısa xarakteristikası,(https://studopedia.ru/3_166571;https://creativeconomy.ru/lib/10066;) mənbələrin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

*Apardığımız tədqiqat göstərdi ki, mövcud mexanizmlər sırasına innovasiya sahibkarlıq üzrə müvafiq hüquqi və normativ-texniki aktların təkmilləşdirilməsi və innovasiya prosesinin stimullaşdırılması mexanizmlərini və onların təminedicilərini də daxil etmək lazımdır.* Onların tam təsnifatı 2 saylı şəkildə öz əksini tapmışdır.




**Şəkil 2**. Sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin aktivləşdirilməsi üçün zəruri olan yeni mexanizmlərin və onların təmin edicilərinin strukturu (https://urait.ru/book/ innovacionnoe-predprinimatelstvo 442427; https: //www.asau.ru/ biblioteka / 4327-naumov-in-deyat-predpriyatiya), mənbələrin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Emal sənayesinin innovasiya aktivliyinin, ixrac potensialının aşağı olması, investisiya çatışmazlığı, rəqabətə davamsızlıq, istehsalın ləng diversifikasiyası, ətraf mühitə mənfi təsirlərin davam etməsi, istehsalın son nəticəsi ilə (keyfiyyəti ilə) əməyin ödənişi arasında kəskin fərqlərin mövcudluğu orada daha təkmil mexanizmlərin işlənib həyata keçirilməsini tələb edir.

Həmin mexanizmlərin icrası üçün emal sənayesində innovasiya sahibkarlığının tənzimlənməsi mütərəqqi prinsiplərə söykənməlidir.

*Təklif edilən mexanizmlərin uğurlu icrası nəticəsində formalaşacaq innovasiya sahibkarlığının səviyyəsini kiçik və orta ölçülü sahibkar firmalarda qiymətləndirmək üçün sistem indikatorlardan istifadə etmək məqsədə uyğun olardı.*

Dördüncü sənaye inqilabının tələbləri kontekstində emal sənayesinin dayanıqlı inkişafına nail olmaq üçün sahənin innovasiya və kreativ potensialı onun müvafiq modelinin mövcudluğu ilə müəyyən olunmalı, **“innovasiya potensialı – rəqabət qabiliyyəti – iqtisadi təhlükəsizlik”** parametrlərinin qarşılıqlı əlaqəsinə söykənməli və innovasiya potensialı- material, informasiya, maliyyə və intellektual resurslar əsasında formalaşmalıdır.

Dissertasiyanın **“Azərbaycan Respublikasının emal sənayesində innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi”** adlı ikinci fəslində çoxillik statistik, ilkin uçot və hesabat sənədlərinin məlumatları və sosioloji tədqiqatların nəticələri nəzərə alınmaqla əvvəlcə ölkədə sahibkarlıq subyektlərinin strukturunda baş verən dəyişikliklərin sahənin iqtisadi inkişafına təsiri təhlil edilmiş, innovasiya sahibkarlığının təşkilinin mövcud vəziyyətinin kəmiyyət və keyfiyyət dəyişiklikləri hesablanan sistem indikatorlar əsasında araşdırılmış, eləcə də sahibkarlıq subyektlərinin innovasiya aktivliyinə təsir edən amillər ekonometrik və sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilərək çoxsaylı ehtiyat imkanları aşkara çıxarılmış və onlardan səmərəli istifadə yolları göstərilmişdir.

Hesablamalar göstərir ki, 2015-2023-cü illərdə ölkənin emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin strukturunda əsaslı dəyişikliklər baş vermişdir (cədvəl 1).

**Cədvəl 1**

**Azərbaycanın emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin strukturunda baş verən dəyişikliklər**

| Göstəricilər | İllər | | | | | 2015-2023-cü illərdə kənarlaşma (+-) |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2017 | 2019 | 2022 | 2023 | |
| Fəaliyyət göstərən müəssisələrin sayı **onlardan:** | 1778 | 1826 | 2330 | 3130 | 3660 | +1882 |
| dövlət | 144 | 117 | 124 | 103 | 102 | -42 |
| qeyri-dövlət | 1634 | 1709 | 2206 | 3027 | 3558 | +1924 |
| kiçik (mikro) | 964 | 1218 | 1494 | 2603 | 3142 | +2178 |
| orta | 639 | 427 | 503 | 390 | 380 | -259 |
| iri | 175 | 181 | 233 | 137 | 138 | -37 |
| fərdi sahibkarlar, nəfər | 15711 | 17154 | 19842 | 25663 | 27123 | +11412 |
| xarici investisiyalı müəssisələr | 88 | 103 | 134 | 151 | 170 | +82 |
| müştərək müəssisələr | 78 | 91 | 121 | 134 | 148 | +70 |

**Mənbə:** Cədvəl "Azərbaycanın Statistik Göstəriciləri"; "Azərbaycanın sənayesi"; "Sosial, iqtisadi inkişaf", Statistik məcmuələrin məlumatları əsasında müxtəlif tərəfdən tərtib edilib hesablanmışdır (https://www.stat.gov.az/).

Nəticədə qeyri-neft emal sənayesi inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün müstəsna əhəmiyyət kəsb edən və müasir texnika-texnologiyalara əsaslanan çoxsaylı müştərək emal müəssisələri, texnoparklar, eləcə də Sumqayıt, Mingəçevir şəhərlərində, Bakı şəhərinin Balaxanı və Pirallahı qəsəbələrində, Qaradağ rayonunda yeni yaradılan sənaye parkları, regionlardakı sənaye məhəllələri innovasiya sahibkarlığının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidinə imkan vermişdir.

Lakin, reallıqda institusional prosesdə bir sıra mənfi meyllərində

yer aldığını müşahidə etmək olur. Belə ki, emal sənayesi fəaliyyyət göstərən mikro, fərdi və kiçik sahibkarlıq subyektlərinin mütləq əksəriyyəti innovasiya məhsulu istehsal etmirlər. Sənaye məhsullarının (xidmətin) 9-11%-i fərdi sahibkarların payına düşür. Hər üç kateqoriyadan olan subyektlərin istehsal etdikləri xalq istehlakı malları daxili bazarda reallaşır, bir qismi isə idxalı əvəz edir və müxtəlif səbəblərdən ləğv edilən sahibkarlıq subyektlərinin sayının artması tədqiq edilən sənaye sahəsinin innovasiya aktivliyinə mənfi təsir göstərmişdir (cədvəl 2).

**Cədvəl 2**

**Azərbaycanda yeni yaradılan və ləğv edilən sahibkarlıq subyektlərinin sayı və nisbətinin üstələmə səviyyəsi**

| Göstəricilər | İllər | | | | 2015-2023-cü illərdə Cəmi |
|---|---|---|---|---|---|
| | 2015-2020 | 2021 | 2022 | 2023 | |
| Yeni yaradılan<br>**O cümlədən:** | 64783 | 12223 | 16254 | 16439 | 109699 |
| emal sənayesində | 3090 | 876 | 1012 | 1127 | 6105 |
| Ləğv edilən<br>**O cümlədən:** | 3769 | 518 | 557 | 738 | 5582 |
| emal sənayesində | 179 | 17 | 32 | 50 | 278 |
| Yeni yaradılan sahibkarlıq subyektlərinin ləğv edilənləri üstələmə səviyyəsi, dəfə<br>**O cümlədən:** | 17,2 dəfə | 23,6 dəfə | 29,2 dəfə | 22,3 dəfə | 19,6 dəfə |
| emal sənayesində | 17,3 dəfə | 51,5 dəfə | 31,2 dəfə | 22,5 dəfə | 21,9 dəfə |

**Mənbə:** Cədvəl müəllif tərəfindən “Sosial, iqtisadi inkişaf” aylıq statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib hesablanmışdır (https://www.stat.gov.az/).

Son illərdə emal sənayesində ləğv edilən bütün sahibkarlıq subyektlərinin 95%-dən çoxu xüsusi mülkiyyətdə olmuşdur. Sonuncuların içərisində 686 xarici və müştərək müəssisə (X və MM)

ləğv edilmişdir ki, onların da bütün özəl subyektlərin tərkibindəki xüsusi çəkisi ayrı-ayrı illərdə 12,2% arasında dəyişmişdir.

Hesablamalar göstərir ki, 2015-2023-cü illərdə ləğv edilən 5582 vahid sahibkarlıq subyektindən 3773 vahidini və yaxud 67,6%-ni mikro və kiçik müəssisələr təşkil etmiş və həmin müəssisələr üzrə şərti məhsul itkisinin məbləği 437,8 mln.man, şərti itirilən iş yerlərinin bir növbəli rejimdə sayı 30854 vahid, X və MM-lər üzrə isə uyğun olaraq: 16688 mln man və 38940 vahid; şərti itirilən vergi və ödəmələrin məbləği 2,20 mln.man təşkil etmişdir. Hər iki kateqoriyadan olan sahibkarlıq subyektlərinin ləğvi nəticəsində şərti məhsul itkisinin toplam məbləğinin ÜDM-dəki xüsusi çəkisi 1,66%-lə 2,97% arasında dəyişmişdir.

Qeyd edilən illərdə ölkənin emal sənayesində texnoloji innovasiyalara yönəldilən investisiyaların məbləği artıb–azalan xətlə dəyişərək cəmi 230,8 mln. man. təşkil etmişdir.

Emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclər əsasən məhsul innovasiyasına hədəflənmiş və xərclərin strukturuna mənfi təsir göstərmişdir.

Emal sənayesində yeni marketinq tədqiqatların aparılmasına, müştərək müəssisələrin təşkilinə, innovasiya fəaliyyəti üçün kadr hazırlığına, qabaqcıl firmaların müvafiq iş təcrübəsinin öyrənilməsinə lazımi məbləğdə vəsait ayrılmır. Tərəfimizdən aparılan hesablamalar göstərir ki, emal sənayesinin 24 alt sahəsindən nisbi fəal innovasiya aktivliyi 8 sahədə müşahidə edilir. Həmin alt sahələrin 2015-2018-ci illərdə 2-də, 2019-cu ildə – 8 də, 2020-ci ildə - 7-də, 2021-2023-cü illərdə isə 8-də innovasiya məhsulu istehsal edilməmişdir.

Ölkənin emal sənayesinin sahibkarlıq subyektlərində innovasiya məhsulunun xüsusi çəkisinin beynəlxalq səviyyədə tövsiyə edilən astana həddindən kəskin şəkildə aşağı olması həmin prosesə çoxsaylı təşkilati-iqtisadi, texniki-texnoloji (istehsal) amillərin mənfi təsir göstərdiyini qaçılmaz edir. Həmin amilləri təsnifləşdirmək və onların müəssisələrin innovasiya aktivliyinə təsir dərəcəsini müəyyən etmək üçün işdə iki aspektdə aparılan sosioloji tədqiqatların nəticələrindən istifadə etməyə üstünlük vermişik.

Onlardan birincisi, AKDSK-nın hər il orta və iri sahibkarlıq subyektlərinin xətti rəhbərləri və mütəxəssisləri arasında apardıqları sorğu, digəri isə tərəfimizdən tərtib edilən xüsusi anketin köməyi ilə keçirdiyimiz sosioloji tədqiqatdır.

Amillərin xarakterinə görə qruplaşdırılması nəticəsində müəyyən edilmişdir ki, 2010-2023-cü illərdə orta və iri sahibkarlıq subyektlərinin innovasiya aktivliyinə mane olan amillərin orta statistik səviyyəsinin 55,4% - iqtisadi; 28,4% - istehsal və 16,2 % isə digər təşkilati məzmuna malikdirlər. Həmin illər ərzində iqtisadi təyinatlı amillərin xüsusi çəkisi bərabərləşmiş, istehsal 7,0% azalmış, digər təşkilati xarakterli amillərin payı isə - 7,0% artmışdır (cədvəl 3).

**Cədvəl 3**

**Azərbaycanın emal sənayesində sahibkarlıq subyektlərinin innovasiya aktivliyinə mane olan amillər**

| Amillərin təsnifatı | İllər | | | | | 2010-2023-cü illərdə kənarlaşma (±) |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2019 | 2021 | 2022 | 2023 | |
| **Cəmi:** o cümlədən | 100 | 100 | 100 | 100 | 100 | - |
| İqtisadi | 55,4 | 55,5 | 45,9 | 48,3 | 55,4 | - |
| İstehsalat | 35,4 | 26,2 | 33,9 | 34,6 | 28,4 | -7,0 |
| Digər amillər | 9,2 | 18,3 | 20,2 | 17,1 | 16,2 | +7,0 |

**Mənbə:** Cədvəl müəllif tərəfindən 2015-2024-cü illər üzrə "Azərbaycanın sənayesi" Statistik məcmuələrinin məlumatları əsasında tərtib edilib, hesablanmışdır (https://www.stat.gov.az/).

Emal sənayesi üzrə rəyi soruşulanların 27,2% innovasiyaların tətbiqinə mane olan mühüm iqtisadi amil müəssisənin öz pul vəsaitinin olmaması, 17,9% yeniliklərin dəyərinin yüksək olması, 14,4% dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması; 15,0% yüksək iqtisadi risk amilini,10,4%-i yeni istehsal edilən məhsullara çəkilən xərclərin ödəmə müddətinin uzun olmasını da qeyd etmişlər.

İstehsal amilləri sırasında rəyi soruşulanların 17,9%-i – yeni texnologiyalar haqqında informasiya çatışmazlığını; 16,9%-i –

yüksək ixtisaslı işçilərə ehtiyacın olduğunu; 13,5%-i satış bazarlarına dair informasiyanın azlığını; 16,5%-i müəssisə tərəfindən yeniliklərin çətin qəbul edilməsi; 11,7%-i isə müəssisə ilə elmi təşkilatlar arasında kooperasiya əlaqələrinin zəif olduğunu ön plana çəkmişlər.

Emal sənayesinin orta statuslu sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətini qiymətləndirmək üçün tərəfimizdən tərtib edilən xüsusi anketlə 52 sahibkarlıq subyektinin 150-dən çox xətti rəhbərləri və menecerlərinin fikirləri öyrənilib ümumiləşdirilmişdir. Rəyi soruşulanların 76%-ni kişi; 24%-ni qadın sahibkarlardır.

Onların fikrincə müəssisədə elmtutumlu məhsulun istehsalına aşağıdakı reallıq mane olur:

- intellektual mülkiyyətin qorunmasına yüksək maliyyə vəsaitinin tələb olunması (35,6%);
- informasiya texnologiyalarının tətbiqi üçün cəlb edilən vəsaitin dəyərinin yüksək olması (29,1%);
- elmtutumlu məhsula çəkilən xərclərin çox olması (27,1%);
- kadrların ixtisas səviyyəsinin aşağı olması (10,2%).

Rəyi soruşulanların 22,5%-i hesab edir ki, müəssisədə yeni ideyanı tətbiq etmək çətindir; 21,2%-i yeniliklərin tətbiqinə çox vaxt sərf etmək lazım gəlir; 15,0%-i yeniliyi tətbiq etməyə səbr, qüvvə və vaxt çatmır; 18,7%-i maddi stimul yoxdur; 8,8%-i isə yeniliyin səmərə gətirəcəyinə inanmadığını qeyd etmişlər.

Qeyd edilənlərlə yanaşı, işdə çoxillik statistik məlumatları əsasında emal sənayesində innovasiya fəaliyyətinə təsir edən texniki-iqtisadi göstəricilər arasında hazır proqram paketlərindən-EViews, MatLab, MS Excel, MathCad və s. istifadə edərək riyazi-statistik reqressiya analizi aparılmışdır. Bunun üçün səbəb amilləri kimi sənaye məhsullarının həcmini-$\mathbf{X_1}$, əsas istehsal fondlarının aktiv hissəsini-$\mathbf{X_2}$, texnoloji innovasiyalara çəkilən xərcləri-$\mathbf{X_3}$-lə, nəticə amili kimi isə innovasiya məhsullarının həcmini **Y**-lə işarələyərək, hesablama aparılmış və aşağıdakı nəticələr əldə edilmişdir.

$$\mathbf{Y=0,05421x_1+0,405x_2+0,839x_3+58,923}$$

Riyazi asılılığın Fişer kriteriyası və Diterminasiya əmsalı vasitəsi ilə adekvatlığının müsbət olduğu təsdiq edilmiş və müəyyən olunmuşdur ki, Azərbaycanda sənaye məhsullarının həcminin bir faiz artması, innovasiya məhsullarının həcmini 0,02% artmasına, əsas istehsal fondlarının aktiv hissəsinin bir faiz artması, innovasiya məhsullarının həcmini 0,141 % artmasına, texnoloji innovasiyalara çəkilən xərclərin bir faiz artması isə innovasiya məhsullarının həcmini 0,649 % artması ilə nəticələnir. Aparılan riyazi-statistik hesablama nəticəsində 2030-cu ilədək emal sənayesində buraxılması ehtimal edilən innovasiya məhsulunun proqnozu verilmişdir.

Dissertasiyanın **"Azərbaycan Respublikasının emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkilinin iqtisadi metod və mexanizmlərinin təkmilləşdirilməsi"** adlı üçüncü fəsildə əsas diqqət innovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsinə və emal sənayesində innovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşdırılmasına yönəldilmişdir.

Son 20 ildə Azərbaycanda innovasiya iqtisadiyyatının dəstəklənməsi üçün bir sıra təşkilati-iqtisadi, infrastruktur və təşviqi tədbirlər həyata keçirilir, uğurlu nəticələr əldə olunmuşdur. Buna baxmayaraq, ölkədə innovasiyanın təşviqi üçün münbit şərait yaratmaq kimi vəzifə uzunmüddətli dövrün prioritetlərindəndir. Onun icrası kontestində yaradılacaq yeni maliyyələşmə mexanizmlərinin emal sənayesi müəssisələrində tətbiqi innovativ sahibkarlığın inkişafına təkan vermiş olacaqdır.

*Azərbaycanda innovasiya sahibkarlığının davamlı inkişafına təminat yaratmaq üçün "İnnovasiya fəaliyyətinin tənzimlənməsi və inkişafı haqqında" qanunun qəbul edilməsi və emal sənayesinin əsas alt sahələri üzrə uzunmüddətli dövrü əhatə edən innovativ-inkişaf Proqramlarının işlənilməsi və həyata keçirilməsi vacibdir. Həmin proqramda iqtisadiyyatın innovativ inkişaf prioritetlərinin elementləri nəzərə alınmalı və proqrama daxil edilən tədbirlərin icrası kompleks və sistemli yanaşmaya söykənməli, dövlətin innovasiyaya hədəflənən ümumi inkişaf strategiyasını özündə ehtiva*

*etmәlidir*. Burada başlıca mәsәlә dövlәtin innovasiya strategiyası ilә innovasiya bazarı arasında qarşılıqlı vә üzvi әlaqәnin yaradılmasıdır. Azәrbaycanda elmi-tәdqiqatların istehsalatda tәtbiqi prosesi lәng hәyata keçirilir, elmlә istehsalat arasında birbaşa üzvi әlaqә hәlә dә tam tәşkil edilmәmişdir.

*Fikrimizcә,"Elm-tәhsil-istehsalat-bazar" strateji alyansın fәaliyyәti üçün yeni hüquqi çәrçivә qaydası formalaşdırılmalıdır ki, yeni tәşkilati-iqtisadi mexanizm çәrçivәsindә Azәrbaycan iqtisadiyyatı inkişaf modeli müstәvisindә formalaşa bilsin. Buna nail olmaq üçün isә iqtisadi inkişafın hәrәkәtverici qüvvәlәri ilә mikroiqtisadi aspektdә inklüziv inkişafı arasında sıx üzvi әlaqә yaradılmalıdır ki, iqtisadi şaxәlәndirmә vә rәqabәt üçün zәruri olan startup dәyişikliyini hәyata keçirmәk mümkün olsun. Demәli, sahibkar elә qabiliyyәtә malik olmalıdır ki, qarşıda duran bütün funksiyaları uğurla vә daha az xәrclә hәyata keçirәrәk bazar iqtisadiyyatının inkişaf edәn subyektlәrindәn birinә çevrilmiş olsun. Hәmin qabiliyyәtin (sәriştәnin, bacarığın) bir-biri ilә üzvi әlaqәdә olan elementlәrini aşağıdakı kimi tәsniflәşdirmәk olar: strateji düşüncә, peşәkarlıq, tәşәbbüskarlıq, tәşkilatçılıq, mәnәvi keyfiyyәt, çalışqanlıq vә şәxsi mütәşәkkillik. Onların hәr birinin әhatә dairәsini özündә әks etdirәn istiqamәtlәr tәrәfimizdәn tәrtib edilәn prinsipial modeldә öz әksini tapmışdır.*

Ölkәdә innovasiyayönümlü iqtisadiyyatı formalaşdırmağın başlıca şәrti Milli İnnovasiya Sistemini (MİS) yaratmaq vә onu tәkamül yolu ilә inkişaf etdirmәkdir. Azәrbaycanda real MİS-in formalaşması özünün ilkin mәrhәlәsindәdir, sistemli vә ardıcıl xarakter daşımır.

İnnovativ inkişaf yoluna qәdәm qoyan ölkәlәrin iqtisadiyyatında baş verәn dәyişikliklәr kontekstindә söylәmәk olar ki, innovasiya sahibkarlığının *dövlәt tәnzimlәnmәsinin vacib forması kimi çıxış edәcәk MİS-milli sәrhәdlәr çәrçivәsindә elmi biliklәrin vә texnologiyaların istehsalı vә kommersiyalaşdırılması ilә mәşğul olan tәşkilati strukturların qarşılıqlı әlaqәsinin mәcmusu olmaqla hüquqi, maliyyә vә sosial xarakterli institutlar kompleksindәn ibarәt olub, innovasiya prosesinin dinamikliyinә tәminat yaradan, milli*

*ənənələrə, köklərə, siyasi və mədəni dəyərlərə söykənən geniş əhatəli mürəkkəb sosial-iqtisadi sistemdir.*

Hesab edirik ki, Azərbaycanda həmin sistemin formalaşması və emal sənayesində innovasiya sahibkarlığının inkişaf etdirilməsi prosesində istifadəsi metodoloji baza kimi çıxış edə bilər.

Qloballaşan dünyada hər bir ölkənin iqtisadiyyatının dayanıqlığı kiçik və orta biznesin (KOB) inkişaf səviyyəsi ilə xarakterizə edilir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə KOB-un ÜDM-də payı 50%, məşğulluqda isə 60%-dən çoxdur. Lakin Azərbaycanda KOS subyektləri üzrə risk amili yüksəkdir, bu da onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır. Aparılan sosioloji tədqiqatların nəticələrində rəyi soruşulanların 15,0%-i innovasiyaların tətbiq edilməsinə mane olan amil kimi yüksək iqtisadi risklə üzləşdiklərini qeyd etmişlər. Həmin və digər iqtisadi-istehsal amillərinin mənfi təsiri nəticəsində təkcə 2015-2023-cü illərdə Azərbaycanda innovasiyaları daha çox tətbiq etməyə imkanı olan 686 xarici və müştərək müəssisələr öz fəaliyyətlərinə xitam vermişlər.

Bu kimi real faktlar ölkənin emal sənayesində fəaliyyət göstərən sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsi üzrə mövcud mexanizmin təkmilləşdirilməsinin zəruriliyini şərtləşdirmişdir. *İşdə həmin mexanizmin elementlərinin üzvi tərkib hissəsini özündə ehtiva edən və mövcud yanaşmalardan əsaslı şəkildə fərqlənən prinsipial sxem təklif olunmuşdur.*

*Bizim fikrimizcə, innovasiya risklərinin idarə edilməsinin mexanizmi kontekstində xarici ölkələrin iş təcrübəsindən istifadə etməklə KOBİA-nın fəaliyyət dairəsi çərçivəsində mikro, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi ilə əlaqədar* ***zəmanət fondunun, girovsuz maliyyələşdirmə mexanizmlərinin*** *yaradılması və bütünlükdə innovasiya fəaliyyətinin şaxələndirilməsi, nəticə etibarı ilə riskin tənzimlənməsinə imkan verə bilər.*

*Sahibkarlıq subyektlərində İKT-dən geniş istifadə də risklərin azaldılmasında, iqtisadi və texnoloji risklərin tənzimlənməsində baza aləti kimi çıxış edə bilər. Müəssisələrdə "innovasiya riskləri çantası"-nın yaradılması riskin dəyərinin aşağı salınmasına münbit şərait yaratmış olacaqdır.*

*Aparılan tədqiqatın məntiqi nəticəsi olaraq emal sənayesini qeyri-qənaətbəxş innovasiya aktivliyinin yüksəldilməsi üzrə icrası təkamül yolu ilə təmin ediləcək innovativ inkişaf strategiyasının formalaşmasına zəruri ehtiyac duyulur. O, sərbəst şəkildə formalaşdırılan strateji məqsədə çatmağın alət və metodu kimi çıxış etməli, müxtəlif mülkiyyət formalarında fəaliyyət göstərən təsərrüfat subyektlərində innovasiyaların fasiləsiz olaraq tətbiqinə hədəflənməli, həyat tsikli prosesini özündə ehtiva etməli və onun bazardakı mövqeyi nəzərə alınmalıdır.* Bunun üçün mövcud resurslardan (iqtisadi, marketinq, elmi-texniki, texnoloji, kadr, qeyri-material və maliyyə resursları, İKT-dən istifadə vəziyyəti və sairə) istifadə imkanları diqqət mərkəzində saxlanmalıdır.

*Hesab edirik ki, Azərbaycanın emal sənayesinin alt sahələrinin aşağı texniki-texnoloji durumu və zəif innovasiya aktivliyi şəraitində məqsədli innovasiya-investisiya layihələrinin işlənilməsi və həyata keçirilməsi innovativ inkişaf strategiyasının vacib elementindən birini təşkil eləməlidir.* Layihələrin idarə edilməsi üzrə Beynəlxalq Assosiasiyasının məlumatlarına görə bu istiqamətdə müvafiq alətlərinin təcrübədə tətbiqi zamanı 20-30% vaxta, 15-20% isə çəkilən xərclərə qənaət edilir. Fikrimizcə, bu sahədə uğur qazanmağın asan yolu orta və iri müəssisələrdə daim fəaliyyət göstərən işçi strukturun (qrupun), *iri subyektlərdə isə beynəlxalq təcrübədə geniş tətbiq edilən Texnologiyaların Transferti Mərkəzinin yaradılması məqsədəuyğun olardı.*

## Nəticə

Aparılan tədqiqatın yekunu kimi əldə edilən nəticələr aşağıdakılardan ibarətdir:

- Bu vaxtadək aparılan tədqiqatlarda innovasiya sahibkarlığının təşkili və idarə edilməsi üzrə hələ də yekdil fikir formalaşdırılmamış, verilən təriflər və yanaşmalar əksər hallarda lokal elementdən ibarətdir və sistemli yanaşmadan kənardır, innovasiya sahibkarlığının növlərinin, infrastrukturunun əhatə dairəsinin dəqiqləşdirilməsinə ehtiyac duyulur.

▪ Kiçik və orta sahibkar firmalarda innovativ inkişafa təkan verən layihə yanaşmasına üstünlük verilməsi önəmli hesab edilir.

▪ Azərbaycanın mikro-iqtisadi mühitində çoxsaylı alt sahələrdən ibarət emal sənayesi ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsində, qeyri-neft sənaye sektorunun inkişafında, məşğulluğun təmin edilməsində, əhalinin sosial rifahının yaxşılaşdırılmasında vacib mövqedə qərarlaşmışdır.

▪ Emal sənayesində yaranmış əlavə dəyərin və onun ÜDM-dakı payının azalması müşahidə edilir;

▪ Son 10 il ərzində ölkə iqtisadiyyatında əsas kapitala yönəldilən xarici investisiyaların yalnız 2.0% -i emal sənayesinin payına düşür. Sahənin ayrı-ayrı alt strukturlarına həmin təyinatlı investisiya yönəldilmir.

▪ Emal sənayesində ümumi məhsul buraxılışının həcmi orada sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı ildən-ilə artsa da sahənin innovasiya aktivliyi əsaslı dərəcədə aşağıdır. Sahənin aparıcı alt sahələrində - innovasiya fəaliyyəti, innovasiya sahibkarlığının təşkili və idarə edilməsinin mövcud vəziyyəti ölkə iqtisadiyyatının keyfiyyət dəyişikliyinə əsaslı imkan yaratmır, hələlik dəyər zənciri prinsipinə riayət olunmur, orada xammal ixracına üstünlük verilir.

▪ Azərbaycanda “İnnovasiya fəaliyyətinin tənzimlənməsi” üzrə qanunun və emal sənayesinin innovativ inkişafına dair Dövlət Proqramının işlənilməsinə və həyata keçirilməsinə ehtiyac duyulur;

▪ Emal sənayesində məhsulun keyfiyyətinin idarə edilməsində bir sıra təşkilati-iqtisadi boşluqlar mövcuddur. Orada İSO tipli beynəlxalq standartlar zəif tətbiq edilir. Adı çəkilən sənaye sahəsində əsas istehsal fondlarının aktiv hissəsinin xüsusi çəkisi ildən ilə azalır və onların aşınma dərəcəsi yüksəkdir.

▪ Hər il rəqabət mübarizəsinə tab gətirməyən çoxsaylı emal müəsissələri, o cümlədən, xarici və müştərək müəssisələr öz fəaliyyətlərinə xitam verirlər ki, bu da böyük məbləğdə məhsul və çox sayda iş yeri itkisinə səbəb olur.

▪ Emal sənayesi müəssisələrində yüksək ödənişli iş yerlərinin təşkilinə diqqət yetirilmir, orada işçi axıcılığı yüksəkdir, əməyin

motivləşdirilməsi sistemində mütərəqqi mexanizmlərin tətbiqinə zəruri ehtiyac vardır.

## Təklif və tövsiyələr

Emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkili, idarə edilməsi və inkişafına dair aşağıdakı təklif və tövsiyələrin həyata keçirilməsi zəruridir.

- Uzaq xarici və MDB ölkələrinin innovasiya sahibkarlığının maliyyələşdirilməsi, stimullaşdırılması, innovasiyaların tətbiqi mexanizmi inkişaf konsepsiyası, modelləri, infrastrukturun formalaşması, texnologiyaların transferi, innovasiyaların kommersiyalaşdırılması və sığortalanması üzrə iş təcrübələrindən ölkəmizin emal sənayesində istifadəsi yüksək sosial-iqtisadi nəticələr verə bilər.
- Ölkədə Milli İnnovasiya Sisteminin qurulması, innovasiya siyasətinin "təhsil-tədqiqat-innovasiya" istiqamətinə, yaxın gələcəkdə 5-6-cı nəsil texnoloji sistemə keçid, klasterləşmə prosesinin intensivləşdirilməsi, inkişaf strategiyası ilə innovasiya bazarı arasında qarşılıqlı əlaqənin yaradılması, qeyri-neft emal məhsullarının həcminin və çeşidinin artırılması bütünlükdə innovasiya yönümlü iqtisadiyyatın dinamik inkişafına təminat yarada bilər.
- Emal sənayesinin innovativ inkişafı üçün məqsədli dövlət proqramının işlənilməsi və həyata keçirilməsi, zəruri hallarda eyni adlı proqramın kooperasiya əlaqələri sıx olan emal sanayesinin alt sahələri üzrə tərtib olunub icrasının təmin edilməsi nəticə etibarı ilə sahənin dayanıqlı inkişafına təminat yaradacaqdır;
- Emal sənayesinin innovasiya aktivliyinin aşağı olması və orada keyfiyyət dəyişikliyinin zəif tempi innovasiya sahibkarlığının sistemliliyi və kompleksliliyi özündə ehtiva edən inkişaf strategiyasının formalaşmasının vacibliyini ön plana çəkir.
- Ölkənin bütün iqtisadi fəaliyyət sahələrinin daha ucuz xammal, material, xalq istehlakı malları, reagentlər, boyalar və s. ilə təmin edilməsindəki xüsusi iştirakına görə, eləcə də ərzaq

təhlükəsizliyinə təminat yaratmaq üçün emal sənayesinin – kimya, neft-kimyası, qida və əczaçılıq alt sahələrinin müqayisəli üstünlüyə malik sahələrə çevrilməsi;

- İnnovasiya yönümlü məhsul istehsal edən emal müəssisələrinə dövlət sifarişinin verilməsi qaydalarının rəsmiləşdirilməsi, eləcə də idxalı əvəz edən və ixrac yönümlü qeyri-neft məhsullarının istehsalı prosesinə kiçik və orta müəssisələrin iştirakını təşviq etməklə ixracın şaxələndirilməsinin təmin edilməsi;
- Fərdi, mikro və kiçik müəssisələrin müflisləşməsinin, eləcə də ləğv olunma ehtimalının tənzimlənməsi və dayanıqlı fəaliyyətlərinin təmin edilməsi üçün onların yerləşdikləri ərazilərdəki texnoparkların, sənaye məhəllələrinin və aqroparkların strukturunun daxil edilməsi, müştərək müəssisələrin, yüksək sıxlığa malik olan sənaye zonalarında pilot subyektlərin yaradılması, biznes-inkubatorların inkişaf etdirilməsi, sahədə Startup və məqsədli innovasiya layihələrin tətbiqi sferasına çevrilməsi işinin intensivləşdirilməsi nəticə etibarilə yüksək sinerji effekti əldə olunmasına imkan vermiş olacaqdır;
- Emal müəssisələrində informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsi və orada mühasibat uçotu üzrə beynəlxalq standartların tətbiqinin stimullaşdırılması;
- Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya məhsulunun istehsalı üçün aldıqları kreditlərin subsidiyalaşdırılması;
- İnnovasiya layihələrinin icrasına dəstək məqsədilə zəmanət fondunun formalaşdırılması və vençur kapitalından, eləcə də innovasiya sahibkarlığının inkişafı üçün risklərin azaldılmasının təşkilati-iqtisadi mexanizmlərindən istifadəyə üstünlük verilməsi;
- Texnologiyaların transferi və kommersiyalaşdırılması vasitəsi ilə xarici investisiyaların ölkəyə cəlb edilməsində klasterlərin formalaşması və inkişafı mühüm rol oynamaqla yanaşı iştirakçı kompaniyaların xərclərinin düzgün idarə edilməsi nəticəsində yüksək sinerji effekti ilə səciyyələnir. Odur ki, yüksək texnoloji potensiala, inteqrasiya olunan təşkilati struktura malik dəyər zəncirinin bütün həlqələrini özündə ehtiva edən sahə klasterlərin Azərbaycanın emal sənayesinin sıx kooperasiya əlaqələri olan alt sahələrdə yaradılması orada innovasiya aktivliyinin, ixrac imkanlarının artmasına, investisiya imkanlarının yaxşılaşdırılmasına, məqsədli layihələrin və

proqramların həyata keçirilməsinə, innovasiya fəaliyyətinin şaxələndirilməsinə, innovativ infrastrukturun inkişafına, qalıq məhsulun həcminin minimuma endirilməsinə, subyektlərin maliyyə dayanıqlığının təmin edilməsinə, kadr potensialından səmərəli istifadəyə və innovasiya sahibkarlığının innovativ inkişaf strategiyasının işlənməsi və həyata keçirilməsinə imkan vermiş olacaqdır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc edilmiş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Əbdürrəhmanova A.F. Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının təşkili "Sənayenin müasir vəziyyəti və inkişaf problemləri: texnoparkların və sənaye məhəllələrinin ölkənin iqtisadi inkişafına təsiri" Respublika EPK-nın materialları. Bakı, AMİU, 2019, s.126-129
2. Əbdürrəhmanova A.F. Emal sənayesində innovasiya sahibkarlığının təşkilinin sosial aspektləri. "Şəxsiyyət, cəmiyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda Respublika Elmi Konfransın materialları. Mingəçevir, 2019, s.371-374
3. Əbdürrəhmanova A.F. İnnovasiya sahibkarlığının təşkili üzrə beynəlxalq təcrübə. AMEA İqtisadiyyat İnstitutunun Elmi əsərləri №6, Bakı, "Elm və bilik", 2019, s.350-355
4. Абдуррахманова А.Ф, Состояние и пути улучшения инновационной активности предприятий обрабатывающей промышленности Азербайджана. ADVANCED SCİENCE, Сборник статей VII международной научно-практической конференции, Пенза, МЦНС «Наука и просвещение», 2019, с.87-92
5. Əbdürrəhmanova A.F. İnnovasiya sahibkarlığı və onun qiymətləndirilməsinə sistemli yanaşma. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, "Elm", №1, 2020, s.92-97
6. Əbdürrəhmanova A.F. Kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya aktivliyinin artırılmasının başlıca istiqamətləri "Heydər Əliyev və Azərbaycanın milli-iqtisadi inkişaf

modeli” mövzusunda EPK-nın materialları. Bakı, AMİU, 2020, s.140-144

7. Əbdürrəhmanova A.F. Azərbaycanda sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilməsi//AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası №3, Bakı, “Elm”, 2020, s.93-98

8. Абдуррахманова А.Ф. Основные факторы, препятствующие развитию инновационной активности предпринимательских субъектов в Азербайджане. «Вестник Алтайской Академии экономики и права» №1 (часть 2), г. Барнаул, 2020, s.12-18

9. Алиев Т.Н., Абдуррахманова А.Ф. Повышение инновационной активности предприятий обрабатывающей промышленности Азербайджана в условиях глобализации. Научный журнал Венгрии “The scientific Heritage” (Научное наследие) № 49 (p-5), Будапешт, 2020, с.22-28

10. Абдуррахманова А.Ф. Состояние организации и направление развития малого и среднего предпринимательства в Азербайджане. Сборник научных статей по итогам международной научно-практической конференции на тему «Прикладной характер научных исследований и практика их реализации в условиях глобального кризиса в экономике и обществе». Санкт-Петербургский Центр системного анализа, СПб, ГЭУ, 21-22 августа 2020 года, с.102-107

11. Əbdürrəhmanova A.F. Kiçik və orta sahibkarlıq subyektlərində innovasiya risklərinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi. “Kooperasiya” elmi-praktiki jurnal №2, Bakı, «AKU”, 2021, s.97-103

12. Əbdürrəhmanova A.F. Azərbaycanın emal sənayesində innovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşmasının təşkilati-metodiki aspektləri. “İqtisadi artım və ictimai rifah” №1, AMEA İqtisadiyyat İnstitutu, Bakı, “Avropa”, 2021, s.81-90

13. Əbdürrəhmanova A.F. Azərbaycanda innovasiya sahibkarlığının beynəlxalq təcrübəyə uyğunlaşdırılması. Konfrans materialı, Akademik Z.Səmədzadənin 80 illik yubileyinə həsr olunan

“Dayanıqlı inkişafın yeni keyfiyyət mərhələsi” Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2021, s.493-497

14. Əbdürrəhmanova A.F. Emal sənayesində sahibkarlığın innovasiya fəaliyyətinin informasiya təminatı. Konfrans materialı, “İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri” mövzusunda SDU və Türkiyənin Yıldız Texnik Universiteti ilə birgə keçirdiyi Beynəlxalq elmi konfrans. Sumqayıt, 16-17 dekabr, 2021, s.493-497

15. Алиев Т.Н., Абдуррахманова А.Ф. Значение обрабатывающей промышленности Азербайджана в формировании добавленной стоимости в экономике. Евразийский Союз Учёных Серия: Экономические и юридические науки. Москва, 2022, том 1, №8 (101), с.3-8.

16. Əliyev T.N.,Balamiyeva S.İ., Əbdürrəhmanova A.F. “Bərk tullantıların təkrar emalında biznes fəaliyyətinin genişləndirilməsi” , “Kooperasiya” elmi- praktiki jurnal , № 2 (73), Bakı, AKU, 2024, s.182 -193

17. Əliyev T.N., Əbdürrəhmanova A.F. Azərbaycanın emal sənayesi müəssisələrində dəyər zəncirinin innovativ yanaşmalar əsasında formalaşdırılması. Ii İqtisadi artım və ictimai rifah. Elmi jurnal № 3, Bakı, “Avropa”, 2024, s. 182-193.



Dissertasiyanın müdafiəsi “28” fevral 2025-ci il tarixində saat $11^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə AR ETN İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR ETN İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (www.economics.com.az)

Avtoreferat “17” yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.12. 2024
Kağızın formatı: A5
Həcm: 37 566 işarə
Tiraj: 100